

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 63 (23.950)

7 aprel 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə aprelin 6-da Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilib. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb.

Görüşdə dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirib və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğulayıb. Prezident İlham Əliyev Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan tərəfinin iştirakı ilə bu gün keçiriləcək üçtərəfli formatda görüşün nəticəyönümlü olacağına ümidvarlığını ifadə edib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bu çərçivədə Ermənistan və Azərbaycan arasında aparılan dialoqun əhəmiyyətini qeyd edib. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirib.



## İmtahanlar qrafik üzrə keçirilib



*Mart ayında Dövlət İmtahan Mərkəzi tərəfindən muxtar respublikada müxtəlif istiqamətlər üzrə imtahanların keçirilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət davam etdirilib.*

Yanvar ayından başlanan təhsilverənlərin sertifikatlaşdırma imtahanları mart ayı ərzində də keçirilib. Bununla da muxtar respublika üzrə riyaziyyat, ibtidai sinif müəllimliyi, Azərbaycan dili, tarix, ingilis dili, fiziki tərbiyə, biologiya və texnologiya müəllimlərinin sertifikatlaşdırılması tam başa çatdırılıb. Digər ixtisaslar üzrə imtahanlar müvafiq olaraq aprelin 7-nə qədər davam edəcək.

5-9 mart tarixlərdə musiqi təhsili müəssisələri üzrə müəllimlərin attestasiya imtahanlarının müsahibə mərhələsi keçirilib. Müsahibənin nəticələrinə görə bu mərhələdə iştirak edən 39 namizəddən 33-ü keçid balını toplayıb və pedaqoji fəaliyyətini davam etdirmək hüququ qazanıb.

Martın 10-da isə musiqi təhsili müəssisələrinə işə qəbulun müsahibə mərhələsi keçirilib.

Dövlət orqanlarında çalışan əməkdaşların peşəkarlığının yoxlanılması məqsədilə keçirilən attestasiya imtahanları mart ayında da davam etdirilib. Martın 11-də Daxili İşlər Nazirliyi əməkdaşlarının növbəti attestasiya imtahanı keçirilib. Nazirliyin 37 əməkdaşının iştirak etdiyi imtahanda 29 nəfər keçid balını toplayıb.

Martın 29-da Naxçıvan Muxtar Respublika Prokurorluğu və Hərbi Prokurorluğun 7 əməkdaşının iştirakı ilə attestasiya imtahanı keçirilib ki, onların hər biri müvafiq keçid balını toplayıb.

Martın 31-də gömrük orqanlarına işə qəbulla bağlı müsabiqə elan olunub. Müsabiqəyə sənəd qəbulu mayın 2-nə qədər davam edəcək.

Mart ayı ərzində hamiliklə bağlı tədbirlər də diqqətdə saxlanılıb. Martın 17-də Dövlət İmtahan Mərkəzinin əməkdaşları Naxçıvan Dövlət Universitetinin mərkəzə hamiliyə verilmiş Dövlət və bələdiyyə idarəetməsi və Dövlət və ictimai münasibətlər ixtisaslarında təhsilalan tələbələrlə görüşüb. Onlara "Dövlət qulluqçularına aid hüquqi məsuliyyət tədbirləri" və "Dövlət qulluğuna qəbul üçün müsabiqənin keçirilməsi qaydaları" mövzularında hazırlanmış slaydlar vasitəsilə seminar keçirilib.

Mart ayında mərkəz tərəfindən təşkil olunmuş dövlət qulluğuna qəbul üçün hazırlıq kurslarında 105, müəllimlərin işə qəbulu üçün hazırlıq kurslarında isə 14 olmaqla, ümumilikdə, 119 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

*Muxtar respublikada səhiyyə müəssisələrinin müasir tələblər səviyyəsində tikilməsi və ya yenidən qurulması əhalinin hərtərəfli tibbi xidmətlə təmin olunmasına imkan verir. Eyni zamanda həmin müəssisələrin ixtisaslı tibbi kadrlarla təminatı səhiyyə sahəsində qarşıya qoyulmuş prioritet məsələlərdəndir.*

## Səhiyyə müəssisələrində 47 həkim və tibb işçisi işlə təmin olunub

Tibb işçilərinin bilik və bacarıqlarının artırılması məqsədilə sertifikasiyaların aparılması, muxtar respublikanın şəhər, rayon və kəndlərində yerləşən səhiyyə müəssisələrində vakant vəzifələrin tutulması məqsədilə imtahan və müsabiqələrin təşkil olunması üçün müvafiq tədbirlər həyata keçirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 oktyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında tibb işçilərinin dövlət səhiyyə müəssisələrinə işə qəbulu və sertifikasiyasının aparılması Qaydaları"na əsasən Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən səhiyyə müəssisələrinə işə qəbul üçün 17 dekabr 2021-ci il tarixdə müsabiqə elan edilmişdir. Müsabiqəyə muxtar respublikanın səhiyyə müəssisələri üzrə 434 vakant yer çıxarılmış, 214 namizəd sənəd təqdim etmişdir.

Müsabiqə iki mərhələdə təşkil olunmuşdur. 22-23 fevral 2022-ci il tarixdə keçirilən test mərhələsində 211 namizəd iştirak etmiş və onlardan 62-si müvafiq (40 və daha çox) bal toplayaraq klinik tapşırıq adlanan ikinci mərhələyə buraxılmışdır.

Martın 15-də müsabiqənin klinik tapşırıq hissəsində 61 namizəd iştirak etmişdir. Beş sualdan ibarət olmaqla yazılı şəkildə keçirilən bu mərhələdə namizədlərin praktik bilik səviyyəsi və peşə vərdişlərinin qiymətləndirilməsi mütəxəssislər tərəfindən həyata keçirilmişdir. Klinik tapşırıq hissəsi üzrə hər bir suala verilən cavab 5 ballıq sistem əsasında qiymətləndirilmişdir. İmtahan suallarının test və klinik tapşırıq hissələri üzrə toplanılan ballar ümumiləşdirilərək yekun bal çıxarılmış, 61 namizədin 47-si, o cümlədən 15 həkim və 32 orta tibb işçisi muxtar respublikanın şəhər, rayon və kəndlərində aprelin 1-dən müvafiq vəzifələrə təyin edilmiş və əmrləşdirilərək iş yerlərinə göndərilmişdir.

Muxtar respublikanın kəndlərində müasir səhiyyə müəssisələrinin tikilib istifadəyə verilməsi, tibbi avadanlıqlarla təminat namizədlərin həmin yerlərə marağını artırmışdır. Belə ki, müsabiqədən keçən 47 namizədin 25-i kəndlərdə işlə təmin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada aprel ayı üçün əmək pensiyalarının maliyyələşdirilməsi başa çatdırılıb

Muxtar respublikada həyata keçirilən tədbirlər əhalinin sosial vəziyyətinin daha da yaxşılaşması üçün əsaslı zəmin yaradır. Əhalinin həssas qrupuna daxil olan əmək pensiyaçılarının da rifah halının yüksəldilməsi ilə bağlı tədbirlər daim diqqət mərkəzində saxlanılır. Onlara göstərilən xidmətlərin operativliyi təmin olunur. Pensiyaların vaxtından əvvəl ödənilməsi və bu zaman tətbiq edilən ödəniş vasitələri onlara göstərilən xidmətlərin yüksək səviyyədə olması məqsədi daşıyır. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bu istiqamətdə müvafiq işlər həyata keçirib və ötən aylarda olduğu kimi, aprel ayında da əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırıb. Eyni zamanda sığorta prinsipi ilə pensiya alanların hər birinə 2022-ci il üzrə verilməsi nəzərdə tutulan 200 manat maddi yardımın ikinci rüb üzrə 50 manatı da pensiya ilə birlikdə ödənilib.

Məlumat üçün bildirək ki, nəzərdə tutulan maddi yardımlar əmək pensiyaçılarına hər rübün birinci ayında ödənilir. Bundan başqa, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına pensiya məbləğlərinin 10 faizi məbləğində maddi yardımın ödənilməsi də təmin edilib. Pensiyaçılar pensiyalarını plastik kartlar vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər. Kəndlərdə yaşayan əmək pensiyaçıları isə istəklərinə uyğun olaraq yaşadığı ərazidə yerləşən poçt bölmələri vasitəsilə də pensiyalarını ala bilərlər. Pensiya ödənişi ilə birlikdə əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də ödənilməsi başa çatdırılıb, həmin şəxslərin şəxsi hesablarına vəsaitin köçürülməsi təmin olunub.

Qeyd edək ki, yalnız məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslər pensiya və müavinət ödəmələrini ala bilər. Bunu nəzərə alaraq vətəndaşlar məcburi dövlət sosial sığorta haqlarının vaxtında və tam miqdarda ödənilməsinə maraqlı olmalıdır. Bunun nəticəsində sığorta ödəmələrinin vaxtından əvvəl maliyyələşdirilməsi təmin edilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

Muxtar respublikamızın hərtərəfli inkişafında mühüm rol oynayan, sosial-iqtisadi inkişafın bəhrələri olan yeni quruculuq ünvanlarının sayı ilbəil artır.

## Yeni inzibati bina inşa olunur

Şahbuz rayonunda da tikinti-quruculuq tədbirləri uğurla davam etdirilir. Hazırda rayon Statistika və Maliyyə Şöbəsi üçün yeni binanın tikintisi sürətlə aparılır. Layihəyə əsasən bina üçün, ümumilikdə, 922 kvadratmetr sahə ayrılıb. Üç mərtəbədən ibarət olan binanın zirzəmisi Statistika, 1-ci və 2-ci mərtəbələri isə Maliyyə Şöbəsinə ayrılıb. Hər iki təşkilat üçün müvafiq xidmət otaqları nəzərdə tutulub. Binada əsas tikinti işləri başa çatıb, fasad hissə travertin daş ilə üzlənib. Hazırda binanın daxilində suvaq və alçı işləri, xaricində isə travertin üzləmə işləri aparılır. Binada yaradılacaq müasir iş şəraiti vətəndaşlara həmin qurumlar tərəfindən yüksək xidmət göstərilməsinə imkan verəcək.





**Telli MƏMMƏDOVA**

## Avstriya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin ticarət müşaviri Georg Karabazcek: *“Naxçıvanın mühiti, təbiəti, habelə turizm potensialı zəngindir”*

*Avstriya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin ticarət müşaviri Georg Karabazcek və Avstriya İqtisadiyyat Palatasının Bakıdakı nümayəndəliyinin rəhbəri Sabir Məmmədov Naxçıvan Muxtar Respublikasına işgüzar səfər ediblər.*

Səfər çərçivəsində qonaqlar əvvəlcə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyevlə görüşüb, Naxçıvan Biznez Mərkəzi ilə yaxından tanış olublar. Məlumat verilib ki, ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı və təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılmış, əhalinin, eləcə də təsərrüfat sahiblərinin, sahibkarların bu sahədə işlərinin uğurlu nəticələnməsi üçün bir sıra ardıcıl tədbirlər görülmüşdür. Bunun nəticəsidir ki, muxtar diyarımızda yeni biznes əlaqələrinin qurulması, işgüzar görüşlərin keçirilməsi, sahibkarların maarifləndirilməsi, muxtar respublikada istehsal edilən məhsulların nümayiş etdirilməsi baxımından yaradılan Biznes Mərkəzi bu istiqamətdə xüsusi olaraq seçilir. Mərkəzin əsas missiyası sahibkarlara xidmət, biznesin inkişafı üzrə onlara məsləhətlərin verilməsi, biznesə yeni başlayanlar üçün treninqlərin təşkili və biznes planlarının hazırlanmasında metodik dəstək göstərməkdir.





Birinci günün sonunda qonaqlar Naxçıvan Avtomobil Zavodu ilə də yaxından tanış olublar. Burada onlara zavodun iş prinsipi, fəaliyyət istiqamətləri, istehsal potensialı və keyfiyyəti barədə ətraflı məlumat verilib.

Səfərin ikinci günü qonaqlar Ağbulaq İstirahət Mərkəzi ilə tanış olublar, ardınca “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə səfər ediblər. Burada qonaqlara bildirilib ki, Naxçıvan şəhəri ərazisində inşa olunmuş türk-islam mədəniyyəti abidələrinə mülki tikintilər, o cümlədən saraylar da daxildir. Belə saraylardan biri də XVIII əsrin memarlıq nümunəsi olan, Naxçıvan xanlarının yaşayış yeri sayılan Xan sarayıdır. İki mərtəbədən ibarət olan saray iki ayrı-ayrı hissələrdən ibarət olmuşdur. Sarayın bərpası isə 2010-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq Sərəncamı ilə təsdiqlənmiş və ilkin görünüşü qorunmaqla təmir edilmişdir.

Günün sonunda qonaqlar “Əshabi-Kəhf” Dini-Mədəni Abidə Kompleksi, Duzdağ Fizioterapiya Mərkəzi ilə də yaxından tanış olublar. Dini turizm baxımından mühüm əhəmiyyət kəsb edən kompleks haqqında məlumat böyük maraq doğurub. Qeyd olunub ki, ziyarətgahın adı ərəb dilindən tərcümədə “mağara sahibləri” mənasını verir. Müqəddəs “Qurani-Kərim”də “Əl-Kəhf” surəsinin 9-27-ci ayələrində mağaraya sığınan 7 gəncin 300 ildən artıq yatmalarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir.

Səfər çərçivəsində Avstriya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin ticarət müşaviri *Georg Karabazcek* “Şərq qapısı” qəzetinə müsahibə verib:

– Bildirmək istərdim ki, Azərbaycan Respublikasının çoxtərəfli əməkdaşlıq etdiyi dövlətlərdən biri də Avstriya Respublikasıdır. Tarixə istinad edərək desək, Azərbaycan-Avstriya münasibətlərinin başlanması uzun illər öncəyə gedib çıxır. Bu gün də həmin münasibətlər, ikitərəfli əməkdaşlıqlar qorunub saxlanmışdır. Qeyd edim ki, biz ildə bir neçə dəfə olmaqla Avstriya şirkətlərinin nümayəndələrini Azərbaycana dəvət edirik. Mən Naxçıvana bir neçə il öncədən səfər etmək istəmişdim. Lakin mövcud pandemiya səbəbi ilə səfərim yarımçıq qalmışdı. Budəfəki səfərimdən çox razıyam. Bununla belə, biz növbəti biznes-forumumuza Naxçıvandan olan sahibkarları da dəvət edəcəyik. Naxçıvanın mühiti, təbiəti, habelə turizm potensialı olduqca zəngindir. Tanış olduğumuz Ağbulaq İstirahət Mərkəzi də çoxsaylı turizm ünvanlarındandır. Burada hər şey çox yaxşıdır. İnanıram ki, Naxçıvana bir daha səfər edəcəyəm.

✍ **Məcid RƏŞADƏTOĞLU**

*Naxçıvan Dövlət Universiteti ilə Təhsildə Keyfiyyət Təminatı Agentliyi arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən ali təhsil ocağında agentliyin təlimləri keçirilib.*

## Təhsildə Keyfiyyət Təminatı Agentliyinin təlimləri uğurla yekunlaşıb

Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” sənədində təhsilin keyfiyyəti başlıca strateji prioritet kimi qeyd olunub. Diqqətə çatdırılıb ki, təlimlərin mahiyyəti rəhbərlik etdiyi ali təhsil ocağının pedaqoji və inzibati heyətinə daxili və xarici keyfiyyət təminatı sisteminə dair geniş məlumat vermək və daxili keyfiyyət təminatının formalaşmasına dəstək olmaqdan ibarətdir.



Dörd gün davam edən təlimi agentliyin Təlim və metodologiya şöbəsinin müdiri Asiman İlyasov keçib. Təlimin ilk günündə təhsil müəssisələrinin akkreditasiya qaydalarından danışılıb. Daxili və xarici keyfiyyət təminatı, mövcud təhsil standartları, akkreditasiya mərhələləri haqqında ətraflı məlumat verilib.

Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar (ESG) haqqında mövzuya təlimin ikinci günündə aydınlıq gətirilib. Keyfiyyət təminatı sistemi, tələbə yönümlü təhsil, tədris və qiymətləndirmə, tələbələrin komanda ilə işləmək bacarığı məqamları haqqında ətraflı məlumat verilib. Tələbələrin ali məktəbə qəbulu, təhsil alması, tanınması və attestasiyası məsələləri barədə çıxış edən təlimçi tələbələrə dəstək, təhsil resursları haqqında iştirakçıları maraqlandıran sualları cavablandırıb.

Asiman İlyasov təlimin üçüncü günündə “Strateji idarəetmə və daxili idarəetmə sisteminin qurulması” mövzusunda çıxışında təlim iştirakçılarını strukturlararası kommunikasiya, planlama, daxili nəzarət mexanizmləri, audit zamanı daxili nəzarət strukturu haqqında məlumatlandırıb.

Təlimin son iki günündə təlimçi daxili səmərəli monitorinq sisteminin qurulması və qiymətləndirmə meyarlarının təyin olunması və sillabusların dizaynı, təlim nəticələrinin yazılması və qiymətləndirilməsi qaydaları danışılıb. Mövzular ilə bağlı müəllimlərin sualları ətraflı cavablandırılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 29 dekabr tarixli Sərəncamı ilə yaradılmış Təhsildə Keyfiyyət Təminatı Agentliyinin fəaliyyət istiqaməti təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişaf etdirilməsi ilə bağlı məsləhət və metodik dəstək xidmətləri təşkil etmək, eləcə də təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsi üçün tövsiyələr hazırlamaq və təlimlər təşkil etməkdir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*“Sənaye ili” – 2022*

## Pərakəndəçilik sektoru yeni mərhələdə

***Pərakəndəçilik müasir dövrdə insanların daim sıx əlaqədə olduğu sektorlardan biridir, hətta birincisidir. Çünki müasir insanın həyatı ticarət və xidmət sahələri ilə birbaşa əlaqəlidir. Buna görə də bu sektor olmadan iqtisadiyyatın inkişafı mümkün deyil. İqtisadi həyatda istənilən yeniliyi bizə ilk çatdıran pərakəndəçilik sektoru həm də istehlakçıları yeni biznes davranışları ilə tanış edir. Burada isə yeniliklər ilbəil, aybaay yox, günbəgün baş verir.***

Muxtar respublikada pərakəndəçilik sektorunun inkişafında da bu yenilikləri davamlı olaraq görməkdəyik. İstər yeni fəaliyyətə başlayan ticarət və xidmət mərkəzlərində, istərsə də mövcud biznes subyektlərində bu cür yenilikləri müşahidə etmək mümkündür. Səbəb isə çox sadədir: bu gün müasir dünya elə bir səviyyəyə gəlib çatıb ki, istənilən ölkədə qlobal bazar üçün nəzərdə tutulmuş məhsul istehsal olunduqdan qısa müddət sonra istehlakçılar üçün əlçatan olur və ya həmin məhsul fərqli ölkələrdə yerli bazarların tələbinə uyğun istehsal edilir. Məhz bu zənciri yaradan, istehsalçı ilə istehlakçını görüşdürən, keyfiyyətli məhsulu bazarda saxlayan, keyfiyyətsiz məhsulu isə qısa zamanda bazardan çıxaran pərakəndəçilik sektorudur. Bəs bu gün muxtar respublikada pərakəndəçilik sektoru hansı mərhələdədir?



Dünya pərakəndəçilik sektoru üzrə aparılan araşdırmalar göstərir ki, hansı ölkələrin iqtisadiyyatı daha çox istehsal üzərində qurulub, həmin ölkələrdə pərakəndəçilik sektoru da davamlı inkişaf edir. Bu amil regionlarda da özünü göstərir. Məsələn, muxtar respublikada özəl sektorun inkişafına göstərilən dövlət dəstəyi sayəsində son illərdə yüzlərlə yeni istehsal və xidmət sahələri yaradılıb. Nəticədə, məhsul istehsalı artıb, xidmət sahələrinin həcmi genişlənib. Bu da, öz növbəsində, yeni ticarət mərkəzlərinin yaradılmasına və ya mövcud olanlarda məhsulların növ və çeşidlərinin artırılmasına, yeni xidmətlərin təklif edilməsinə geniş imkanlar açıb. Əvvəllər aldığımız məhsulların böyük bir həcmini idxal məhsullar təşkil edirdisə, bu gün artıq ticarət şəbəkələrində satılan məhsulların böyük bir qismi yerli müəssisələrin istehsalıdır. Əgər əvvəllər alıcılar daha çox idxal məhsulların keyfiyyətinə inanır və alırdılarsa, bu gün istehlakçılar yerli məhsullara daha çox üstünlük verirlər. Bir zamanlar istehlakçılar aldıqları məhsulların keyfiyyəti ilə bağlı problemlərlə qarşılaşanda çıxılmaz vəziyyətdə qalırdılarsa, bu gün artıq hər bir yerli istehsalçı öz məhsuluna qəti şəkildə cavabdehlik daşıyır və alıcılar qarşılaşdıqları problemlərlə bağlı öz fikirlərini lazımi ünvanlara çatdıra, eyni zamanda onlar bu hüquqlarından istifadə edərək istehlakçı mənafelərini qoruya bilirlər. Bu deyilənləri müxtəlif xidmət sahələrinə də aid etmək olar.

Pərakəndəçilik sektoruna nəzər yetirdikdə görürük ki, son illərdə muxtar respublikada yerli istehsal müəssisələrinin sayının artması bazarda sağlam rəqabət yaratmağı da bacarıb. Bu rəqabət isə keyfiyyətli məhsulların həcmini artırıb, istehlakçıların seçim imkanlarını genişləndirib. Məsələn, 10 il bundan əvvəl muxtar respublikada tanıdığımız bir neçə mebel istehsalı müəssisəsi var idisə, bu gün artıq bu sahə ilə məşğul olan çoxsaylı fərdi istehsal sexləri və müəssisələr mövcuddur. Və yaxud əvvəlki illərdən fərqli olaraq bu gün muxtar respublikada çoxsaylı quşçuluq müəssisələri fəaliyyət göstərir ki, bu da onlar arasında sağlam rəqabət mühitinin formalaşmasına şərait yaradıb. Nəticədə, daxili bazarın quş ətinə və yumurtaya olan tələbatı yüksək səviyyədə ödənilir. Başqa bir misal. Əgər əvvəllər inşaat materiallarına olan tələbatın çox az bir hissəsi üçün istehsal imkanları var idisə, bu gün artıq sementdən travertin üzlük daşlara, məsaməli bloklardan istilik radiatorlarına, plastik borulardan divar boyalarınadək yüzlərlə adda məhsul istehsal edən müəssisələrimiz var.



Pərakəndəçilik sektorunda diqqəti cəlb edən amillərdən biri də muxtar respublikada müəyyən məhsullar üzrə ixtisaslaşmış mağazaların həcminin ildən-ilə genişlənməsidir. İxtisaslaşmış mağazalar isə istehlakçı tələblərini ən dolğun şəkildə ödəməyə çalışan ticarət obyektləridir. İxtisaslaşmanı zəruri edən də pərakəndəçilik sektorunun uğurudur. Bunun məntiqi izahı belədir ki, iqtisadi inkişaf təmin olunduqca, insanların maddi vəziyyəti yaxşılaşdıqca, tələbatları da artır. Mağazalar isə bunu hərtərəfli təmin etmək üçün yaranan tələbata hərtərəfli yanaşmağı üstün tuturlar. Elə buna görədir ki, son bir neçə ildə Naxçıvan şəhərində sırf kimyəvi yuyucu məhsullarının, musiqi alətlərinin, unlu şirniyyat növlərinin, uşaq geyimlərinin, idman mallarının, elektrikli məişət avadanlıqlarının və onların ehtiyat hissələrinin satıldığı onlarla ixtisaslaşmış mağazanın fəaliyyətə başladığını müşahidə edirik.

Pərakəndəçilikdə yeniliklərdən biri də, ötən yazılarımızda da qeyd etdiyimiz kimi, onlayn satış və xidmətlərin sayının artmasıdır. İstər mağazaçılıqda, istər restoran biznesində, istərsə də müxtəlif xidmət sahələrində onlayn fəaliyyətin genişlənməsi son iki ildə özünü daha aydın şəkildə göstərir. Naxçıvan Onlayn Marketin, karqo şirkətlərinin fəaliyyətinin genişlənməsi bunu bir daha göstərir. Yeri gəlmişkən bu gün karqo şirkətləri arasında yaranmış sağlam rəqabət müştəri məmnuniyyətinə də öz müsbət təsirini göstərir. Düşünürük ki, yaxın bir neçə ildə onlayn xidmətlərin həcmi daha da genişlənəcəkdir.

Muxtar respublikanın pərakəndəçilik sektorunun mühüm konsepsiyalarından biri də pərakəndəçilikdə ailə əməyinə əsaslanan məhsulların istehsal həcminin artmasıdır. Muxtar respublikada artıq bir neçə ildir, ailə təsərrüfatı məhsullarının istehsalı ilə bağlı dövlət tərəfindən göstərilən hərtərəfli dəstək yüzlərlə ailənin məşğulluğunu təmin edib. Bu da daxili bazarda rəqabətin artmasına, məhsul bolluğuna öz təsirini göstərib. Nəticədə, alıcı ilə istehsalçı arasında birbaşa əlaqə yaranıb. Bu da o deməkdir ki, artıq daxili bazarda satıcının nə istədiyini istehsalçı özü müəyyənləşdirir və bu istəyə uyğun məhsulunu təqdim edir. Muxtar respublikada pərakəndəçiliyin bu uğurunu digər xarici bazarlarda görmək çox çətindir.

2022-ci il muxtar respublikada “Sənaye ili” elan olunub. Muxtar respublikanın mühüm sənaye potensialını nəzərə alaraq bu il yeni-yeni sənaye məhsulu istehsal edən müəssisələrin yarandığının şahidi olacağıq. Artıq bu istiqamətdə mühüm işlərin görülməsinə başlanılıb. Bu isə daxili bazarda yeni məhsulların növ və çeşidlərinin artmasına imkan verəcək, bəzi məhsulların idxaldan asılılığını aradan qaldıracaq. Son nəticədə isə daxili bazarın tələbi ödəndikdən sonra rəqabətqabiliyyətli məhsulların xarici bazarlara çıxışı əsas hədəflərdən olacaq. Elə pərakəndəçilik sektorunun inkişafında növbəti mərhələ də bunu təmin etmək olacaq.

✍ **Səbuhi HƏSƏNOV**

# İnsan sağlamlığı dövlət siyasətinin əsasını təşkil edir



***7 aprel bütün dünyada “Sağlamlıq Günü” kimi qeyd olunur. Bu tarix 1948-ci il aprelin 7-də BMT-nin xüsusi agentliyi kimi yaradılan Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətə başlaması ilə əlaqədardır.***

Azərbaycanda səhiyyənin inkişafı ötən əsrin 70-ci illərindən başlayır. Həmin dövrdən etibarən ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar səhiyyə sahəsinin əsaslı inkişafına səbəb olub, ölkəmizin bütün bölgələrində müasir xəstəxana binaları tikilərək istifadəyə verilib. Müstəqillik illərində də ulu öndərin rəhbərliyi ilə səhiyyə sahəsində kompleks tədbirlər həyata keçirilib, bu sahənin qanunvericilik bazası təkmilləşdirilib, müasir səhiyyə infrastrukturu yaradılıb.

Səhiyyəni cəmiyyət və dövlət həyatında mühüm sahə kimi qiymətləndirən ulu öndərimiz Heydər Əliyev deyirdi: ***“Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun inkişafı üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir”.*** Tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri bu gün dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində layiqincə davam etdirir. Səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş Dövlət proqramlarının həyata keçirilməsi, əhalinin kütləvi tibbi dispanserizasiyası vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin və keyfiyyətinin artmasına imkan verib. Ölkə Prezidentinin dediyi kimi: ***“Müasir, davamlı, yüksəkkeyfiyyətli səhiyyə sisteminə sahib olmaq hər bir ölkə üçün prioritetdir. Hazırda Azərbaycanda səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan icbari tibbi sığorta tətbiq etməklə ilkin tibbi yardımı gücləndirir, təcili tibbi yardım xidmətlərini yeniləyir, ölkədə elektron səhiyyə platforması və dövlət səhiyyə hesablarını istifadəyə verməklə rəqəmsallaşmanı təmin edir”.***

Muxtar respublikamızda da vətəndaşların sağlamlığının qorunması istiqamətində mühüm işlər görülüb. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, Modul Tipli Xəstəxana, Ordubad Rayon Uşaq Xəstəxanası, Şərur, Culfa və Şahbuz rayonlarının gigiyena və epidemiologiya şöbələri, Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Nüsnüs, Yuxarı Əndəmic və Dırnıs kəndlərində həkim ambulatoriyaları, Şərur rayonunun Dərvişlər, Ordubad rayonunun Vələver, Babək rayonunun Araz və Göynük kəndlərində feldşer-mama məntəqələri istifadəyə verilib, muxtar respublikanın səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobilləri təqdim olunub, bu il yanvarın 14-də isə Şərur rayonunun Çərçiboğan kəndində ikimərtəbəli, 14 otaqdan ibarət həkim ambulatoriyası yeni binada fəaliyyətə başlayıb. Hazırda muxtar respublikada əhaliyə 215 tibb müəssisəsi tərəfindən səhiyyə xidməti göstərilir. Həmin tibb müəssisələrində 718 həkim, 2 min 196 orta tibb işçisi çalışır.

Ötən il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı dövlət başçısı bir sıra strateji obyektlərin, həmçinin Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının da açılışında iştirak edib. Prezident cənab İlham Əliyev muxtar respublikada uğurla həyata keçirilən səhiyyə islahatlarını yüksək qiymətləndirərək deyib: ***“Çox şadam ki, Naxçıvanda bu sahədə böyük işlər görülür, böyük uğurlar əldə edilir”.***

Əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsində icbari tibbi sığortanın tətbiqi mühüm şərtdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 mart tarixli “Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanı muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəlməsi, hər bir vətəndaş üçün əlçatan olması baxımından mühüm əhəmiyyət daşıyır. Tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə muxtar respublika əhəmiyyətli xəstəxanalar, rayon mərkəzi xəstəxanaları, qəsəbə və kənd sahə xəstəxanalarının hamısı publik hüquqi şəxs statusu alıb, burada işçilərin əməkhaqları 50 faiz artırılıb. Hazırda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 21 tibb müəssisəsi icbari tibbi sığortanın tətbiqində iştirak edir. 2021-ci ildə muxtar respublikada 219 minə yaxın sakin icbari tibbi sığortadan istifadə edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq publik hüquqi şəxs statuslu Şərur və Ordubad Rayon Uşaq xəstəxanalarının yaradılması gələcəyimiz olan uşaqların sağlamlığının qorunması istiqamətində mühüm tədbirlərdən biridir.

Muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək, ucqar kəndlərdə və obalarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə yaradılmış həkim briqadaları hazırda fəaliyyətlərini davam etdirir, yerlərdə əhalinin müayinə-müalicə işi ilə məşğul olurlar. Qadınlar arasında süd vəzi xərçəngini vaxtında aşkarlamaq üçün profilaktik kütləvi müayinələr, ilkin vərəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə kiçikyaşlı uşaqlar arasında tuberkulin və diaskin test sınağı, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların, tələbələrin kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji və digər müayinələri davam etdirilir. Reproduktiv sağlamlıq və ailə planlaşdırılması nəticəsində ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur. Sağlam cəmiyyətin formalaşdırılması istiqamətində aparılan uğurlu siyasət əhalinin demoqrafik göstəricilərinin yüksəldilməsinə müsbət təsir göstərir.

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq səhiyyə sistemində elektron xidmətlər təkmilləşdirilir. Ötən ildən Tibbi-Sosial Ekspertiza Komissiyasına göndərişlər onlayn sistemə keçirilib. Bu sistem sağlamlıq imkanları məhdudluq dərəcəsinin qiymətləndirilməsində vətəndaş-ekspert təması olmadan, elektron müstəvidə və şəxsin kimliyi, göndəriş verən təşkilatın hansı səhiyyə qurumu olduğu bilinmədən anonim olaraq xəstəliyi əks etdirən tibbi sənədlər əsasında şəffaf şəkildə həyata keçirilməsinə imkan yaradır.

Muxtar respublikanın səhiyyə müəssisələrində xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin aktiv müalicəyə cəlb edilməsi, eləcə də xəstələrin dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təminatı daim nəzarətdə saxlanılır. Görülən işlərin nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünə nəzarət vasitələri ilə təminatı xeyli yaxşılaşıb. Son illər strateji əhəmiyyətli məsələ kimi qan xidmətinin inkişafına da xüsusi diqqət yetirilir. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb. Qan Bankında qan komponentlərinin alınması və uzun müddət saxlanılması üçün hər bir şərait yaradılıb, talassemiya və hemofiliyalı xəstələrin hərtərəfli müalicəsi təmin edilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Hər bir ölkə üçün ən vacib məsələ insanların həyatının qorunmasıdır. Bu gün ölkəmizdə ən qiymətli sərvətimiz olan insanların həyatının qorunması, onların sağlam yaşayışlarının təminatı diqqətdə saxlanılır, səhiyyə inkişaf etdirilir. Bu tədbirlərin tərkib hissəsi olaraq muxtar respublikada da qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir”.***

Hazırda səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır, təcili yardım, elektrokardioqrafiya, exokardioqrafiya, EKQ-tredmil, rentgen, çoxprofilli diaqnostika, hemodializ, cərrahiyyə, kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə insan orqanizminin hərtərəfli müayinəsi mümkündür. Müasir tibbi avadanlıqlarla təminat Naxçıvan şəhəri ilə yanaşı, rayonlarda da şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə yüksək səviyyədə səhiyyə xidmətinin göstərilməsinə, o cümlədən tibbi yardım, ixtisaslı həkimlər tərəfindən müayinə və müalicələrin aparılmasına, həmçinin ehtiyac olan dərman preparatları ilə ödənişsiz təmin edilməsinə, sağlamlıq imkanları məhdudluğun təyin olunması üçün lazımi tibbi sənədlərin hazırlanması və digər xidmətlərin təmin edilməsinə imkan verir.

Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi sahəsində tədbirlər davam etdirilir. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Tibb Kolleci Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə hamiliyə verilib. Həyata keçirilən tədbirlər nəticəsində Səhiyyə Nazirliyi ilə bu təhsil müəssisələri arasında əlaqələr daha da genişlənib. Görülən işlərin nəticəsi olaraq son illər Naxçıvan səhiyyəsində müxtəlif ixtisaslar üzrə yüksəkixtisaslı gənc həkimlərin sayı xeyli artıb. Muxtar respublikanın səhiyyə müəssisələrinin əksəriyyətinə gənc kadrların rəhbərlik etməsi onlara göstərilən inam və etimadın göstəricisidir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının yüksəldilməsi, ixtisas səviyyəsinin artırılması üçün müvafiq mexanizmlər yaradılır, onlar Bakı şəhəri və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşmə və təcrübə kurslarına göndərilir, digər xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən Bakı şəhərində və xarici ölkələrdə fəaliyyət göstərən müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunur və Naxçıvan həkimləri ilə birgə mürəkkəb cərrahi əməliyyatlar aparılır. Sosial layihələr çərçivəsində yüksəkixtisaslı həkim heyəti tərəfindən aparılan cərrahi əməliyyatlar yerli həkimlərin peşə bacarıqlarının yüksəldilməsində mühüm rol oynayır. Hazırda yerli həkim kadrlar tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stent qoyulması, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatları aparılmasına nail olunur. Artıq mürəkkəb cərrahi əməliyyatların da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb. Aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, koronarangioqrafiya manipulyasiyası, ürək damarlarına stent qoyulması, müxtəlif göz və digər əməliyyatların aparılması uğurla davam etdirilir.

Muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının tərkib hissəsi kimi gigiyena və epidemiologiya tədbirlərinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin və onun rayon şöbələrinin fəaliyyəti təmin edilib, yeni binalar istifadəyə verilib, avadanlıqlar alınıb, müasir laboratoriyalar qurulub, ştat strukturu təsdiq edilib. Mərkəz və onun 7 rayon şöbəsi avtomobillərlə, kifayət qədər çiləyici aparat, fərdi qoruyucu vasitələrlə təmin olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamına əsasən təsdiq edilən “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı” da bu sahədə fəaliyyətin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Dövlət proqramında, ümumilikdə, 19 bənd üzrə vəzifələr müəyyənləşdirilib, Səhiyyə Nazirliyi, Gigiyena və Epidemiologiya Mərkəzi, eləcə də aid qurumlar qarşısında mühüm tapşırıqlar qoyulub. Qarşıya qoyulan vəzifələrin icrası əhalinin sağlamlığının və epidemioloji vəziyyətin qorunması, sanitariya mədəniyyətinin formalaşması və epidemioloji xidmətin müasir tələblərə uyğun qurulması kimi mühüm nəticələrin əldə olunmasına imkan verir.

Dünyanın bir çox ölkələrində böyük təhlükəyə çevrilən koronavirus infeksiyasının muxtar respublika ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi öz töhfəsini verməkdədir. Xüsusi kimyəvi vasitələrlə aparılan dezinfeksiya tədbirləri qrafik üzrə insanların ən çox toplaşdıqları yerləri, yaşayış binalarını, uşaq əyləncə qurğularını, nazirlik, idarə və təşkilatları, otelləri, turistik istirahət mərkəzlərini və digər əraziləri əhatə edir. Ali Məclis Sədrinin tapşırığı əsasında bu il 9-11 mart tarixlərində iri ticarət mərkəzlərində və satış bazarlarında, 22-26 mart tarixlərində isə ümumtəhsil müəssisələrində genişləndirilmiş dezinfeksiya tədbirləri həyata keçirilib. Yaradılan şəraitin və görülən qabaqlayıcı tədbirlərin nəticəsidir ki, muxtar respublikada məhdud çərçivədə rast gəlinən virus dərhal lokallaşdırılaraq geniş yayılmasının qarşısı alınıb. Dezinfeksiya tədbirləri təkcə pandemiya dövrü ilə əlaqədar deyil. 2000-ci ildən başlayaraq ardıcıl olaraq payız-qış mövsümündə kəskin respirator infeksiyaların, yaz-yay aylarında isə bağırsaq infeksiyalarının, qida zəhərlənmələrinin qarşısının alınması məqsədilə də aparılır. Bunun nəticəsidir ki, muxtar respublikada idarə olunan yoluxucu xəstəliklərə, demək olar ki, rast gəlinmir. COVID-19 virus infeksiyasına qarşı hazırlanmış vaksinlərin muxtar respublikada tətbiqinə 2021-ci il fevral ayından etibarən başlanılıb. Peyvəndin icra vəziyyəti yüksək səviyyədə aparılaraq orta hesabla 70 faiz səviyyəsində olub. Prezident cənab İlham Əliyev demişdir: ***“Azərbaycan COVID-19 pandemiyasına qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Bizim təşəbbüsümüzlə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Biz, həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərmişik”.***

Səhiyyə turizmi də daim diqqətdə saxlanılır. Duzdağ Fizioterapiya Mərkəzində və Darıdağ Arsenli Su Müalicəxanasında hər il ölkə və bir çox xarici ölkə vətəndaşları müalicə olunurlar. Azərbaycanın rayonlarından sağlamlıq imkanları məhdud şəxslərin sanator müalicə alması üçün həmin müəssisələrə göndərilməsi davam etdirilir. Hazırda tikintisi aparılan Darıdağ Arsenli Su Müalicəxanası və İstirahət Kompleksi, həmçinin “Darıdağ” Termal Hotelin tikintisi bu şəfalı suyun müalicəvi xüsusiyyətlərindən səmərəli şəkildə istifadəyə şərait yaradacaq.

*Muxtar respublikada aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir.*

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Musiqi təhsili müəssisələrində işə qəbulla bağlı müsabiqə başa çatıb

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında 2019-cu il 8 may tarixli Qərarına uyğun olaraq 7 dekabr 2021-ci il tarixdə elan edilmiş müsabiqəyə 127 vakant yer çıxarılmış, 64 vəzifənin tutulması üçün 102 nəfər test mərhələsində iştirak etmişdir. Onlardan 65-i müsabiqənin müsahibə mərhələsində iştirak etmək hüququ qazanmışdır.



Namizədlərin praktik hazırlığı və ifaçılıq qabiliyyətinin yoxlanılması üçün Dövlət İmtahan Mərkəzindən 1, Mədəniyyət Nazirliyindən 1, müstəqil ekspert qismində 3 nəfər olmaqla, 5 üzvdən ibarət müsahibə komissiyası yaradılmış, müsahibə mərhələsində namizədlərə verilən tapşırıqların yerinə yetirilməsi üçün 30 dəqiqə vaxt ayrılmışdır.

Naxçıvan Muxtar Respublikasında dövlət musiqi təhsili müəssisələrinin ixtisaslı kadrlarla komplektləşdirilməsi və tədrisin keyfiyyətinin artırılması məqsədilə keçirilən müsabiqənin müsahibə mərhələsində yaradılmış komissiya tərəfindən müəllimlərin ixtisas bacarığı müvafiq meyarlar üzrə 5 ballıq sistem əsasında qiymətləndirilmişdir.

10-17 mart 2022-ci il tarixlərdə keçirilmiş müsahibə mərhələsində 40 namizəd müvafiq keçid balını toplaya bilmişdir. Müsabiqənin müsahibə mərhələsini müvəffəqiyyətlə keçdiyi üçün skripka ixtisası üzrə 1, fortepiano ixtisası üzrə 10, tar ixtisası üzrə 5, kamança ixtisası üzrə 2, balaban ixtisası üzrə 1, saz ixtisası üzrə 3, qarmon ixtisası üzrə 4, nağara ixtisası üzrə 6, xor ixtisası üzrə 2, xanəndəlik ixtisası üzrə 1, xoreoqrafiya ixtisası üzrə 2 və musiqi nəzəriyyəsi ixtisasları üzrə 4 nəfər muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə müəllim təyin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*İdman*

## Şahmat üzrə komanda birinciliyi



Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında şahmat üzrə komanda birinciliyi keçirilib.

Yarışın keçirilməsində məqsəd tələbələrin asudə vaxtlarını səmərəli keçirmələrini təşkil etmək, onların oyun təcrübəsini artırmaq və oyunçular arasında dostluq əlaqələri yaratmaqdan ibarət olub.

Sonda yarışın əsasnaməsinə uyğun olaraq toplanılan xallara əsasən qaliblər müəyyənləşdirilib. "Naxçıvan" Universitetinin komandası I, Naxçıvan Dövlət Texniki Kollecinin komandası II, Naxçıvan Müəllimlər İnstitutunun komandası III yerə, digər təhsil müəssisələri isə həvəsləndirici yerlərə layiq görülüb.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Futbol Federasiyasında gənclərlə görüş



Naxçıvan Muxtar Respublikasında yeniyetmə və gənclərin kadr kimi formalaşması, tərbiyələrinin artırılması məqsədilə onların idman sahəsinə cəlb olunmasına xüsusi diqqət yetirilir. Bu barədə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə Uzunoba Təlim-Məşq İdman Kompleksinin inzibati binasında keçirilən görüşdə ətraflı danışılıb.

Gənclər və İdman Nazirliyinin könüllü gənclərinin iştirak etdiyi görüşdə çıxış edən Futbol Federasiyasının sədr müavini Sakit Rzayev bildirib ki, bu gün muxtar respublikamızda gənclərin asudə vaxtlarının səmərəli təşkili, intellektual inkişafının təmin edilməsi, onların gələcəyin əsl vətəndaşı kimi yetişdirilməsi üçün hər cür şərait yaradılıb. Gənclərin ixtisaslarına uyğun olaraq idman növləri üzrə seminarlara cəlb edilməsi, onların bu görüşlərdə aktiv şəkildə iştirakı və həm də keçirilən seminarlarda təcrübəli mütəxəssislərin təmsil olunması idmanın muxtar diyarımızda kütləvi şəkildə təbliğinin göstəricisidir. Məhz futbol hakimliyi ilə bağlı keçirilən bu görüş də bunun əyani sübutudur. Sakit Rzayev federasiya tərəfindən futbol sahəsinin inkişafı ilə bağlı görülən işlərdən, gənc hakimlərin hazırlıq prosesindən danışıb, bu sahədə onların üstünlük təşkil etdiyini vurğulayıb.

Sonra Azərbaycan Futbol Federasiyaları Assosiasiyası Hakimlər Komitəsinin təhsil şöbəsinin müdiri, FIFA dərəcəli hakim Anar Salmanov gənclərlə hakimlik barədə fikirlərini bölüşüb. Vurğulayıb ki, ölkəmizdə futbol hakimliyinin inkişaf yolu gündən-günə sürətlənməkdədir. Yeniyetmə və gəncləri hakimlik kurslarına dəvət edən Anar Salmanov onların bu sahədə çalışması üçün geniş imkanlar yaradıldığını bildirib. Hakimlər komitəsinin üzvü gənclərlə maarifləndirici söhbətlər aparıb, görüləcək işlər barədə məlumat verib.

Görüşdə gənclərin sualları cavablandırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

## Tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyində birliyə yeni üzv qəbul edilən aşıqlara vəsiqələr təqdim olunub. Bu münasibətlə keçirilən tədbiri birliyin sədri Tural Bağırov giriş sözü ilə açaraq bildirib ki, bu gün muxtar respublikamızda milli-mənəvi dəyərlərimizə göstərilən diqqət və qayğı ən yüksək səviyyədədir. Buna cavab olaraq Aşıqlar Birliyinin yaradılması həmin birlik üzvlərinin yubiley və bayram tədbirlərində, festivallarda, Novruz bayramı şənliklərində, həmçinin tarixi və əlamətdar günlərdə fəal iştirakları təmin olunub. Birlik üzvləri təkcə muxtar respublikamızda deyil, ölkəmizin müxtəlif şəhərlərində keçirilən konsert proqramlarında iştirak edirlər. Belə ki, birlik üzvləri Bakı şəhərində, ötən ay Türkiyə Respublikasının Ərzurum şəhərində "Şuşa ili" ilə bağlı təşkil olunmuş konsert proqramında muxtar respublikamızı layiqincə təmsil ediblər. Bu gün 10 aşığa vəsiqə təqdim olunması göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Vurğulanıb ki, birlikdə 21 aşıq fəaliyyət göstərir. Bununla yanaşı, həvəskar aşıqlar da birliklə sıx əməkdaşlıq edirlər. Onların da peşəkar aşıq kimi yetişdirilməsinə hərtərəfli köməkliklər göstərilir.



Tədbirdə vəsiqə təqdim olunan Əli İsmayılov həmkarları adından minnətdarlığını bildirib.

Sonda öz fəaliyyəti ilə seçilən aşıqlara vəsiqə təqdim olunub.

**✍ Telli MƏMMƏDOVA**

## Əmək yarmarkası olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, sosial qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluq imkanları artırılıb. Dövlət proqramının icrası ilə əlaqədar ilin əvvəlində muxtar respublikanın əmək bazarı təhlil edilib, vergi orqanlarında qeydiyyatdan keçmiş işəgötürən fiziki və hüquqi şəxslər haqqında məlumatlar dəqiqləşdirilib, müəssisələr tərəfindən vakansiyalar haqqında hesabatların təqdim edilməsinə nəzarət məqsədilə sahibkarlıq subyektlərində monitorinqlər keçirilib, boş iş yerlərinin toplanması təmin edilib.

Aprel ayında ilk əmək yarmarkası Kəngərli rayonunda təşkil olunub. Hərbi xidmətdən yeni tərxis edilmiş gənclərin də iştirakı ilə keçirilən əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 19 müəssisədən 107 boş iş yeri təqdim edilib. Nəticədə, 32 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 4 nəfərin özünüməşğulluq proqramına, 3 nəfərin isə peşə hazırlığı kurslarına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi

### *2022-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul elan edir*

| | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: büdcə hesabına | | ödənişli əsaslarla | | cəmi | o cümlədən: büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə | | | | | | | | | |
| 5503.02 | Vətən tarixi | 1 | | | | 1 | | | |
| 5505.02 | Arxeologiya | | | | | | 2 | 2 | |
| İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə | | | | | | | | | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | | 1 | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 2 | | 1 | | 1 | 1 | 1 | |
| Bioresurslar İnstitutu üzrə | | | | | | | | | |
| 5408.01 | Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası | 1 | | 1 | | | | | |
| Təbii Ehtiyatlar İnstitutu üzrə | | | | | | | | | |
| 2303.01 | Qeyri-üzvi kimya | | | | | | 1 | 1 | |
| 2307.01 | Fiziki kimya | 1 | | | | 1 | | | |
| 2507.01 | Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları | | | | | | 1 | 1 | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | | | | 1 | | | |
| Cəmi: | | 7 | | 3 | | 4 | 5 | 5 | |

***Qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır***

*– müəssisə rəhbərinin adına ərizə;*
*– kadrların şəxsi-qeydiyyat vərəqi;*
*– tərcümeyi-hal;*
*– 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*– iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*– iş yerindən xasiyyətnamə;*
*– çap olunmuş elmi işlərin siyahısı və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat;*
*– ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
*– şəxsiyyəti təsdiq edən sənədin surəti.*
*– xarici dil bilikləri üzrə beynəlxalq sertifikatı olanlara (IELTS, TOEFL, TestDaf, DALF əgər varsa) və ya xarici dildən keçid balını toplayanlara Dövlət İmtahan Mərkəzi tərəfindən verilən təsdiqedici sənəd;*

Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənədlər 7 aprel-7 may 2022-ci il tarixlərdə hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat $9^{00}$-dan $18^{00}$-dək AMEA Naxçıvan Bölməsinin əsas binasında, Elm və təhsil şöbəsində qəbul edilir.

***Ünvan: Heydər Əliyev pr. 76***
***Əlaqə telefonu: 545-34-96***
***e-mail: doktorant.nb@mail.ru***

## Yeni fitnes zalı fəaliyyətə başlayıb

Kəngərli rayonunun Qıvraq qəsəbəsində özəl investisiya hesabına yaradılan yeni fitnes zalı istifadəyə verilib. Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Aparat rəhbəri Tahir Məmmədli çıxış edərək muxtar respublikada bədən tərbiyəsi və idman sahəsinə göstərilən dövlət qayğısından danışıb.



Qeyd olunub ki, "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində görülən tədbirlərin nəticəsidir ki, sahibkarların bu sahəyə marağı artır və onlar da, öz növbəsində, dövlətin dəstəyi ilə gənclərin sağlam həyat tərzinə təşviqi, onların idmançı və ya məşqçi kimi karyera qurması istiqamətində görülən işlərdə yaxından iştirak edirlər. Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Xüsusi mülkiyyətdə olan bədən tərbiyəsi və idman obyektlərinin təşkili və fəaliyyət Qaydaları"nın təsdiq edilməsi haqqında 2021-ci il 20 may tarixli Qərarına uyğun olaraq yeni fitnes zalında da monitorinq aparılıb, müvafiq qaydada sertifikatlaşdırma prosesi icra olunub.

Sonra fitnes zalının sahibi Səbuhi Əlişova fəaliyyət sertifikatı təqdim olunub. Sahibkar göstərilən diqqət və qayğıya görə Ali Məclis Sədrinə minnətdarlığını ifadə edib. Ardınca iştirakçılar zalda icra olunan ilk məşq prosesini izləyiblər.

Qeyd edək ki, yeni fitnes zalının istifadəçiləri müasir trenajorlar, soyunub-geyinmə və hamam otaqları, həmçinin müxtəlif idman qidalarından yararlana bilərlər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Səttarov Aydın Səttar oğlunun adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır

***

Adıgözəlov Elşad İsa oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 293**